anspress.com

31.05.2011

# 31 may Ümumdünya tütünsüz günüdür

Tütünlə mübarizə istiqamətində “Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiya” hazırlanıb

31 may tarixi bütün dünyada Ümumdünya tütünsüz günü kimi qeyd olunur. Dünyanın müxtəlif ölkələrində olduğu kimi Azərbaycanda da, tütünlə mübarizə istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzindən (İSİM) ANS PRESS-ə verilən məlumata görə, bununla bağlı İSİM-də “Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiya” hazırlanıb.

Eyni zamanda 2010-cu ilin dekabrında İSİM-in bir qrup əməkdaşı tütünlə mübarizə təcrübəsinin öyrənilməsi məqsədilə Türkiyəyə səfər edib. Həmçinin ilkin səhiyyə xidmətləri səviyyəsində fəaliyyət göstərən həkimlər üçün nəzərdə tutulan “Tütünçəkmədən imtina etmə üzrə klinik protokol” tərtib edilib. O cümlədən “Tütünlə Mübarizə” mövzusunda 5-15 yaşlı uşaqlar arasında rəsm müsabiqəsi keçirilib, maarifləndirici bukletlər, plakatlar, broşürlar hazırlanıb. www.tobaccocontrol.az saytı yaradılıb və istifadəyə verilib. Həmçinin passiv tütünçəkmə ilə mübarizədə görülən tədbirlərin davamı kimi, video-çarx çəkilib, Azərbaycanda ilk dəfə olaraq, 13-15 yaşlı məktəblilər arasında tütündən istifadə ilə bağlı tədqiqat aparılıb. Tədqiqatın sorğu hissəsi artıq başa çatdırılıb və respublika üzrə 25 məktəbi, 2047 şagirdi əhatə edib.

Məlumata görə, digər tədqiqat “Qeyri-infeksion xəstəliklərin risk faktorlarının araşdırılması”dır. Bu sorğunun əsas məqsədi xroniki qeyri-infeksion xəstəliklərin risk faktorları haqqında ətraflı məlumat toplamaqdır. Belə risk faktorlarına həm də tütünçəkmə aiddir. Araşdırmanın nəticələri əsasında qeyri-infeksion xəstəliklərə qarşı milli strategiyanın hazırlanması planlaşdırılır. Hazırda Azərbaycanda “Siqaretçəkmənin məhdudlaşdırılması haqqında” qanun layihəsi hazırlanır. Qanunun qəbulundan sonra onun tətbiqinə dair müşahidələr aparılacaq.

İctimai Səhiyyə və İslahatlar Mərkəzinin prioritet vəzifələrindən biri kimi, tütünlə mübarizə gələcəkdə də davam etdiriləcək.

Xatırladaq ki, 1988-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Assambleyasının 42-ci sessiyasında 19 saylı qətnamə ilə 31 may Ümümdünya Tütünsüz Günü elan edilib. Bu gün tütün epidemiyasına, onun yaratdığı qarşısı alına bilən xəstəliklərə və ölüm hallarına diqqəti artırmaq məqsədilə qeyd edilir. Hər il Ümumdünya Tütünsüz Gününün mövzusu tütünlə mübarizənin bir probleminə yönəldilir. 2011-ci ilin Ümumdünya Tütünsüz Gününün mövzusu “Tütünə qarşı mübarizə haqqında ÜST-ün Çərçivə Konvensiyası”dır.

***Samin Abdullayev***